# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ



# AZEXPORT.AZ

MADE IN AZERBAIJAN

## İXRAC İCMALI

**2017-ci il / Sentyabr №6**



www.iqtisadiislahat.org
info@ereforms.org

**“2017-ci ildə də Azərbaycan uğurlu inkişaf dinamikasını saxlayır, onu möhkəmləndirir, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atır. Beləliklə, biz gələcək inkişaf üçün də gözəl şərait yaradırıq”.**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsindəki nitqindən**




*“Son illər ərzində sahibkarlara dövlət tərəfindən iki milyard manatdan çox güzəştli kreditlər verilmişdir və əlbəttə, sahibkarlar da öz vəsaitlərini qoyublar. Bu təşəbbüs nəticəsində ölkə iqtisadiyyatının real sektoruna ümumilikdə təqribən 4 milyard manat, bəlkə də ondan da çox vəsait qoyulmuşdur. Kreditlər əsasən regionlara, kənd təsərrüfatına, emal sənayesinə ayrılıbdır. Metodik tövsiyələr verilir. Mən sahibkarlarla mütəmadi olaraq görüşürəm, onlara öz dəstəyimi verirəm. Bilirsiniz ki, yoxlamaların da sayı kəskin şəkildə aşağı düşüb. Yəni, biz şərait yaradırıq ki, sahibkarlar qurub-yaratsınlar, yeni iş yerləri, yeni sənaye sahələri yaratsınlar və Azərbaycanda istehsal, ixrac artsın, idxal azalsın. Biz bunu görürük. Bu ilin 7 ayında ticarət dövriyyəmizin müsbət saldosu əhəmiyyətli dərəcədə artıbdır. Yəni, biz daha çox ixrac edirik, nəinki idxal. Biz 7 ay ərzində valyuta ehtiyatlarımızı böyük dərəcədə artıra bilmişik. Baxmayaraq ki, neftin qiyməti bu gün də çox aşağı səviyyədədir, biz 7 ayda valyuta ehtiyatlarımızı 3 milyard 600 milyon dollar səviyyəsində artırmışıq. Mən deyəndə ki, ölkə qarşısında heç bir maliyyə çətinliyi yoxdur, bax, bu rəqəmlər bunun bariz nümunəsidir.*

*Bir sözlə, 2017-ci ildə də Azərbaycan uğurlu inkişaf dinamikasını saxlayır, onu möhkəmləndirir, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atır. Beləliklə, biz gələcək inkişaf üçün də gözəl şərait yaradırıq”.*

# MÜNDƏRİCAT


SƏHİFƏ 4
**Qeyri-neft sektoru üzrə ixrac**
2017-ci ilin 8 ayında qeyri-neft sektoru üzrə 963.5 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

SƏHİFƏ 8
**AZEXPORT.AZ**
Azexport.az portalına 2017-ci ilin 8 ayında 308.4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

SƏHİFƏ 11
**AZEXPORT.AZ**
Azexport.az portalı Azərbaycan mallarını 450 mindən çox ziyarətçiyə təqdim etmişdir

SƏHİFƏ 13
**AZEXPORT.AZ**
Qeyri-rezidentlərə elektron imza sertifikatı verilməsi qaydası və "www.azexport.az" internet portalı haqqında Əsasnamə təsdiqlənmişdir

SƏHİFƏ 14
**DTH.AZEXPORT.AZ**
Azərbaycanda sərbəst satış sertifikatı veriləcəkdir

SƏHİFƏ 16
**"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi**
İxracatçılar "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətindən istifadə edirlər

SƏHİFƏ 18
**"Worldfood Moscow"**
Azərbaycan "Worldfood Moscow" Beynəlxalq Ərzaq Sərgisində vahid ölkə stendi ilə təmsil olunmuşdur

SƏHİFƏ 20
**İxrac missiyası**
Macarıstana ixrac missiyası təşkil olunacaq
Belarusda Azərbaycan Ticarət Evi uğurla fəaliyyət göstərir

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## 2017-ci ilin 8 ayında qeyri-neft sektoru üzrə 963.5 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

## Azərbaycanın qeyri-neft ixracı 1/3 həcmdə artmışdır

2017-ci ilin 8 ayının statistik rəqəmləri Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracın dinamik olaraq artdığını göstərir. Belə ki, bu ilin 8 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **963.5 milyon ABŞ dolları həcmində** olmuş və bu ixrac əməliyyatlarında **1467 subyekt** iştirak etmişdir. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin 8 ayında qeyri-neft sektoru üzrə ixrac 1/3 həcmdə artmışdır. Cari ilin 8 ayı ərzində qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında Rusiya liderliyi qorumuşdur və bu ölkəyə **338 milyon ABŞ dolları** dəyərində ixrac olmuşdur. Növbəti yerlərdə **Türkiyə (207 milyon ABŞ dolları), Gürcüstan (91 milyon ABŞ dolları), İsveçrə (84 milyon ABŞ dolları) və Türkmənistan (41 milyon ABŞ dolları) gəlir.**

2017-ci ilin 8 ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında dəyərinə görə ilk yeri **pomidor** (tomat) tutur (128.1 milyon ABŞ dolları). İkinci yeri **qızıl** (67.4 milyon ABŞ dolları), üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı **polietilen** (57 milyon ABŞ dolları) tutur.

Cari ilin avqust ayında isə qeyri-neft sektoru üzrə **423 subyekt** tərəfindən **110 milyon ABŞ dolları** dəyərində ixrac əməliyyatları həyata keçirilmişdir.

Avqust ayı üzrə ixrac olunan əsas mallar **elektrik enerjisi, qızıl, metanol** (metil spirti), qabığı təmizlənmiş meşə fındığı, tərkibində 0,25 kütlə %-dən çox karbon olan polad yarımfabrikatlar, emal olunmamış aşqarlanmamış alüminium, şaftalı, mis filizləri və konsentratları, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, alma, ağ şəkər,

## 2017-ci ilin 8 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## Bu ilin avqust ayında 110 milyon ABŞ dolları məbləğində qeyri-neft məhsulu ixrac olunub

gavalı, göyəm və s. olmuşdur. Avqust ayında elektrik enerjisinin ixracının dəyəri **10.3 milyon ABŞ dolları** təşkil etmişdir. Həmçinin ötən ay **2 milyon ABŞ dolları** dəyərində alma və **1.8 milyon ABŞ dolları** dəyərində gavalı və göyəm ixrac olunmuşdur. Ümumilikdə, cari ilin 8 ayında elektrik enerjisinin ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 dəfə, **meyvə-tərəvəz ixracı isə 42 faiz artmışdır.**

Ötən ay qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında Rusiya **birinciliyi Türkiyəyə** verərək ikinci yerdə qərarlaşmışdır. Sonrakı yerlərdə isə Gürcüstan, İsveçrə, Türkmənistan və digər ölkələr qərarlaşır.

2017-ci ilin 8 ayı ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrammalarda verilmişdir.

### 2017-ci ilin avqust ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin avqust ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı




**Qeyd:** *İnfoqrammada 2017-ci ilin avqust ayında ixrac edilən 17 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin avqust ayında bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin 8 ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı




**Qeyd:** *İnfoqrammada 2017-ci ilin 8 ayı ərzində ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin həmin dövrdə bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

# Azexport.az portalına 2017-ci ilin 8 ayında 308.4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

## Cari ilin avqust ayındakı ixrac sifarişlərinin dəyəri isə 44.1 milyon ABŞ dolları təşkil etmişdir

Azexport.az portalı **"Made in Azerbaijan"** brendinin təşviqi istiqamətində fəaliyyətini davam etdirir. Məhz bu fəaliyyət nəticəsində 2017-ci ilin 8 ayı ərzində Azexport.az portalına dünyanın **56 ölkəsindən 308.4 milyon ABŞ dolları** məbləğində ixrac sifarişləri daxil olmuşdur. Azexport.az portalına 2017-ci ilin avqust ayında daxil olan ixrac sifarişlərinin dəyəri isə **44.1 milyon ABŞ dolları** təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri üzrə ilk beşlikdə **Rusiya** (19.2%) ilə yanaşı, **Türkiyə** (7.1%), **Ukrayna** (7.1%), **ABŞ** (4.7%) və **Səudiyyə Ərəbistanı** (4.3%) yer almışdır. Burada diqqət çəkən məqamlardan biri avqust ayında Türkiyədən daxil olan ixrac sifarişlərinin artması və qardaş ölkənin ikinci yerə yüksəlməsidir. Maraqlıdır ki, Dövlət Gömrük Komitəsinin məlumatından da aydın olur ki, avqust ayında Azərbaycandan qeyri-neft məhsulları ən çox Türkiyəyə ixrac edilmişdir.

Azexport.az portalına 2017-ci ilin avqust ayında ilk dəfə **Braziliya, Bəhreyn və Birləşmiş Ərəb Əmirliklərindən** sifarişlər daxil olmuşdur. Ötən ay ərzində daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olur ki, qeyri-neft sektorunda istehsal

### Azexport.az portalına 2017-ci ilin 8 ayında daxil olan ixrac sifarişlərinin dəyəri




**Mənbə:** *Azexport.az*

## Cari ilin avqust ayında daxil olan ixrac sifarişlərinin dəyəri 44.1 milyon ABŞ dolları təşkil edib

olunan müxtəlif məhsullara - konyak, nar şirəsi, şərab, kərə yağı, qızılgül, meyvə tamlı süd, albalı şirəsi, kartof, qaragilə, alma, ipək xalça, pambıq toxumu, mebel dəsti, pambıq, yumurta, tütün, çay, qənnadı məhsulları, mühərrik yağı, elektrik naqili, kosmetik vasitə və s. tələbat böyükdür.

Bu məhsullar içərisində mahlıca, almaya, tütünə, xalçaya, kartofa, meyvə tamlı südə, quş ətinə və yumurtaya müxtəlif ölkələrdən daha böyük maraq olmuşdur. Xüsusən mahlıc, alma, tütün, xalça və kartof üzrə daxil olan sifarişlərin hər birinin dəyəri ayrı-ayrılıqda bir neçə milyon ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat təqdim olunan infoqrammalarda verilmişdir.

### 2017-ci ilin avqust ayında Azexport.az portalına ixrac sifarişi daxil olan mallar




**Mənbə:** *Azexport.az*

## Azexport.az portalına 2017-ci ilin 8 ayı ərzində daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (faizlə)




| | | | | |
|---|---|---|---|---|
| Rusiya 19.2 | Səudiyyə Ərəbistanı 4.3 | İran 2.7 | Benin 2.4 | İtaliya 2.0 |
| Türkiyə 7.1 | Hindistan 3.9 | Çin 2.7 | Gürcüstan 2.0 | Misir 1.6 |
| Ukrayna 7.1 | Qazaxıstan 3.5 | Polşa 2.4 | Nigeriya 2.0 | Fransa 1.2 |
| ABŞ 4.7 | İraq 3.5 | Pakistan 2.4 | Liviya 2.0 | Almaniya 1.2 |

**Mənbə:** *Azexport.az*

# Azexport.az portalı Azərbaycan mallarını 450 mindən çox ziyarətçiyə təqdim edib

Azexport.az portalının yaradılmasının hüquqi əsasını təşkil edən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli Sərəncamının imzalanmasının 1 ili tamam olur. Bu Sərəncamın icrasını təmin etmək məqsədi ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən ötən müddət ərzində Azərbaycan Respublikasında istehsal olunan mallar və onların istehsalçıları barədə məlumatları əks etdirən Azexport.az internet portalı yaradılmış və portalın real vaxt rejimində fəaliyyəti təmin olunmuşdur.

Cari ilin 8 ayı ərzində Azexport.az portalının dünya üzrə tanınmış bir neçə portalla inteqrasiyası təmin edilmişdir. Bunlar dünyanın ən böyük topdansatış platforması olan **www.alibaba.com**, beynəlxalq e-ticarət mərkəzi olan **www.all.biz**, ərəb ölkələrinə ixrac potensialı olan **www.tradekey.com**, Şərqi Asiya ölkələrinə ixrac potensialı daha güclü olan **www.ec21.com**, Rusiyanın kənd təsərrüfatı, qida və emal sənayesi sahəsində satış həyata keçirən **www.agroserver.ru,** həmçinin **www.amazon.com** portallarıdır. Artıq Azexport.az internet portalı Azərbaycan mallarının ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmaq və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirmək istiqamətində ölkəmizdə görülən işlərə böyük töhfə verir.

2017-ci ilin 8 ayı üzrə göstəricilərin təhlili nəticəsində Azərbaycandan və dünyanın müxtəlif ölkələrindən **254** mindən çox ziyarətçinin Azexport.az portalına daxil

## “Made in Azerbaijan” brendinin təqdim olunduğu ziyarətçilərin sayı



# Alibaba.com portalında Azərbaycan mallarına dünyanın müxtəlif ölkələrindən 150 mindən çox baxış olub

olaraq Azərbaycan malları ilə maraqlandığı müəyyən edilmişdir. Bundan əlavə, cari ilin 8 ayı ərzində **Alibaba.com** portalında təqdim olunan Azərbaycan mallarına dünyanın müxtəlif ölkələrindən **150** mindən çox müştəri tərəfindən baxış olmuşdur. All.biz portalında isə **"Made in Azerbaijan"** brendi altında istehsal olunan məhsullara baxış sayı 25 mini ötmüşdür. **Azexport.az** portalının inteqrasiya olunduğu digər portallarda da Azərbaycan mallarına 25 mindən çox baxış olmuşdur. Ümumilikdə, 2017-ci ilin 8 ayı ərzində "Made in Azerbaijan" brendi altında istehsal olunan məhsullara 450 mindən çox baxış olmuşdur.

Xüsusən də Azexport.az portalının inteqrasiya olunduğu portallar vasitəsi ilə 200 mindən çox xarici ziyarətçinin Azərbaycan malları ilə maraqlandığı müəyyən edilmişdir. Bu isə "Made in Azerbaijan" brendinin təşviqi yönündə ciddi nailiyyətdir. Müqayisə üçün qeyd edək ki, hətta ən tanınmış sərgilərə belə qatılmaqla bu kimi nəticəyə nail olmaq çətindir. Cari ildə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulfood 2017" sərgisini cəmi 95 min nəfərin ziyarət etdiyi bildirilir. Cari ildə Almaniyanın Düsseldorf şəhərində keçirilən "Prowein" sərgisini isə ziyarət edənlərin sayının 59 min nəfər olduğu açıqlanmışdır. Bu halda, ümumi ziyarətçilərin müəyyən bir hissəsi konkret bir ölkənin stendinə baxır. Belə sərgilərdə iştirak etmək bütün şirkətlər üçün də əlçatan deyil. Çünki bu kifayət qədər vəsait və aylarla hazırlıq tələb edir.

Azexport.az portalının yaratdığı unikal imkan nəticəsində isə yerli sahibkarlar heç bir vəsait ödəmədən məhsullarını dünyanın bütün güşələrindəki müştərilərə təqdim edirlər. Bu isə **"Made in Azerbaijan"** brendinin təşviqi və sahibkarların ixrac potensialının artırılması baxımından ən əhəmiyyətli dövlət dəstəyi mexanizmlərindən biridir.



# Qeyri-rezidentlərə elektron imza sertifikatı verilməsi qaydası və “www.azexport.az” internet portalı haqqında Əsasnamə təsdiqlənmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il 12 sentyabr tarixində “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası”nın və “www.azexport.az” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Fərman imzalamışdır.

Fərmana əsasən “www.azexport.az” internet portalının (bundan sonra – Portal) operatoru İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Vergilər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında məlumat mübadiləsinin aparılması ilə bağlı müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, informasiya sistemlərinin Portala inteqrasiyası üçün texniki tələbləri üç ay müddətində təsdiq edib Prezidentə məlumat vermək, Fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılmışdır.

Bundan başqa, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə Portalın fəaliyyətinin təşkili, saxlanması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi, Portalın saxlanma xərclərinin maliyyələşdirilməsi ilə əlaqədar təkliflərin iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə Portalın təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi tapşırılmışdır.

Daxili İşlər Nazirliyi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Vergilər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə razılaşdırmaqla, Əsasnamənin tələblərinə uyğun olaraq, Portalın fəaliyyətini təmin edəcək hüdudlarda onun “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə inteqrasiya olunmasını dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Bundan başqa, özlərinə məxsus informasiya sistemləri vasitəsilə Portalda informasiya mübadiləsində iştirak edən orqanlar informasiya sistemlərinin həmin Portala inteqrasiya olunmasını təmin edib, görülən işlərin nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.



# Azərbaycanda sərbəst satış sertifikatı verilәcək

## Sərbəst satış sertifikatı "Made in Azerbaijan" brendini təşviq edəcəkdir

"Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli Fərmanına əsasən Azərbaycanda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən ixracatçılara **sərbəst satış sertifikatı veriləcək**.

Sərbəst satış sertifikatının ixracatçıların müraciəti əsasında yalnız Azərbaycan Respublikasında istehsal olunan mallara verilməsi nəzərdə tutulur. İxracatçılar tərəfindən sərbəst satış sertifikatının əldə olunması könüllü xarakter daşıyacaqdır. Sərbəst satış sertifikatı ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyən sənəddir.

"Azexport.az" portalının fəaliyyəti çərçivəsində müəyyən olmuşdur ki, Azərbaycan məhsullarının keyfiyyətinə əlavə olaraq, zəmanətin təmin edilməsi ilə bağlı mütəmadi şəkildə xarici tərəfdaşlar tərəfindən dünyada geniş yayılmış sərbəst satış "Free sales" sertifikatları tələb edilir. Sertifikat ölkə daxilində məhsula əvvəlcədən müxtəlif qurumlar tərəfindən verilmiş sertifikatların (keyfiyyət, gigiyenik, uyğunluq və s.) qüvvədə olmasını və həmin məhsulun hazırda ölkə daxilində sərbəst satışına bütün icazələrin verildiyini təsdiq edir. Sertifikatın verilməsi



# Sərbəst satış sertifikatını elektron formada almaq mümkün olacaq

proseduru heç bir əlavə laboratoriya və ya testlərin keçirilməsi ilə müşayiət olunmur. Dünya təcrübəsində sərbəst satış sertifikatı malların hər bir partiyasına verilir. Məhsul xarici ölkələrə göndərilirsə, sertifikat dövlət və ingilis dillərində verilir.

MDB ölkələri arasında bu cür sertifikatlar hazırda yalnız Ukraynada və Rusiyada təklif edilir. Ukraynada sertifikatların verilməsini Sənaye və Ticarət Palatası, Rusiyada İxraca Dəstək Mərkəzi həyata keçirir. Türkiyədə sertifikatın verilməsi məhsullara görə fərqlənir və əsasən Gömrük və Ticarət Nazirliyinin akkreditə etdiyi müxtəlif konsaltinq şirkətləri tərəfindən təqdim edilir.

Dünya təcrübəsində sertifikatın verilməsi üçün aşağıdakı sənədlər tələb edilir:

- şirkətin qeydiyyat şəhadətnaməsi;
- sərbəst satış sertifikatı tələb olunan malların siyahısı;
- keyfiyyət sertifikatı;
- malların uyğunluq sertifikatı;
- malların istehsalı üçün lisenziya (qanunla nəzərdə tutulduğu halda);
- beynəlxalq eyniləşdirmə nömrəsi - barkod (əgər varsa);
- ölkə ərazisində malların bir neçə müştəriyə satışının təsdiqi (faktura, çek və ya vergi hesab-faktura).

Sərbəst satış sertifikatının verilməsi **“Made in Azerbaijan”** brendinin təşviqi və qeyri-neft ixracının artımı üçün əlavə təkan olacaqdır.

Qeyd edək ki, ixracatçılar sərbəst satış sertifikatını elektron formada və ya kağız daşıyıcıda əldə edə bilərlər. Sərbəst satış sertifikatı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru tərəfindən elektron imza ilə təsdiqlənərək istifadəçinin elektron kabinetinə göndərilir. Müraciət edən şəxs, öz istəyindən asılı olaraq, sertifikatın **kağız daşıyıcıda** olan formasını İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən əldə edə bilər.



# İxracatçılar "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətindən istifadə edirlər

## "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən Qatərə ixrac olub

"Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" Açıq Səhmdar Cəmiyyəti (ASC) "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə **Qətər Dövlətinə** kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı mənşə sertifikatı almışdır. Bu məhsulların sırasına **kartof, soğan, çuğundur, yerkökü, gül kələmi, kələm, xiyar, badımcan, sarımsaq, limon və pomidor** daxildir.

"Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC-nin təmsilçisi Nicat Rəhimli bildirib ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində ixrac prosedurları ilə bağlı sənədlərin toplanması operativ və səmərəli şəkildə mümkün olur. O, əlavə edib ki, "Ərzaq Məhsullarının Tədarükü və Təhcizatı" ASC bundan sonra da ixrac prosedurlarını "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirməyi planlaşdırır.

Məlumat üçün bildirək ki, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC buna qədər də Azexport.az portalı vasitəsilə alma, yerkökü, pomidor, soğan və fındıq məhsulları üzrə ixrac sifarişləri almışdır. Hazırda "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC Azexport.az üzərindən öz məhsullarının "Amazon.com" saytında yerləşdirilməsi ilə bağlı danışıqlar aparır.

Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə qeyri-neft sektoruna aid digər malların da ixracı ilə bağlı müvafiq sənədlərin alınması mümkündür.



Məsələn, Azərbaycanda fəaliyyət göstərən "AV İmpex" MMC "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə Gürcüstana avtomobil aksessuarları və yağlarını ixrac etmişdir. Belə ki, "AV İmpex" MMC-nin nümayəndəsi Vüsal Civişovun ABŞ, Hindistan və Çindən idxal etdiyi avtomobil aksessuarları və yağlarının Gürcüstana ixracı üçün tələb olunan sertifikatlar barədə ərizəsi müsbət cavablandırılmışdır. İqtisadiyyat Nazirliyinin **"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə** inteqrasiya olunan xidməti ixrac üçün tələb olunan **sertifikatı 4 saat** müddətində tam hazır edərək sahibkara **təqdim etmişdir.**

"AV İmpex" MMC-nin nümayəndəsi Vüsal Civişov sertifikatı əldə etdikdən sonra bildirib ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə ixrac olunan sertifikatı qısa müddətdə əldə etməyə nail olub. O əlavə edib ki, Mərkəzdə sahibkarların səmərəli ixracı üçün hər bir şərait yaradılıb.

**Qeyd:** *"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2017-ci il tarixli Fərmanı əsasında yaradılmışdır. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində beynəlxalq baytarlıq və fitosanitar sertifikatları, keyfiyyət sertifikatı, mənşə sertifikatı, vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazə, mədəni sərvətin mühafizə şəhadətnaməsi və dini təyinatlı ədəbiyyatın ixracına razılıq sənədi verilir. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin inzibati binasında (L.Landau küçəsi, 16) fəaliyyət göstərir.*



# Azərbaycan "Worldfood Moscow" Beynəlxalq Ərzaq Sərgisində vahid ölkə stendi ilə təmsil olunmuşdur

## Azərbaycan stendini 1000-dən çox şirkətin nümayəndəsi ziyarət etmişdir

"Worldfood Moscow" Beynəlxalq Ərzaq Sərgisində ölkəmizin "Made in Azerbaijan" vahid ölkə stendinə sərgi ziyarətçiləri və tədbir iştirakçısı olan ölkələrin şirkətləri tərəfindən böyük maraq göstərilmişdir. Sərginin ilk 2 günü ərzində Rusiya Federasiyası və tədbir iştirakçısı olan digər ölkələrin 1000-dən çox şirkətinin nümayəndəsi Azərbaycan pavilyonunu ziyarət etmişdir.

"Made in Azerbaijan" vahid ölkə stendini ziyarət edən xarici şirkət nümayəndələri yerli məhsullarımız, onların istehsal və hazırlanma texnologiyası, ixrac imkanları ilə maraqlanmış, əməkdaşlığa dair müzakirələr aparmışlar.




Sərgidə iştirak edən Azərbaycanın fındıq istehsalçısı olan "Xanel" şirkəti Rusiyaya 40 ton fındıq ixracına dair bu ölkənin müvafiq sahədə fəaliyyət göstərən şirkəti ilə müqavilə imzalamışdır. "Xanel" şirkətinin Rusiyanın distributor şirkəti ilə imzaladığı digər müqaviləyə əsasən isə bu ölkəyə 80 ton fındıq ixrac olunacaqdır.



Sərgi çərçivəsində Azərbaycanın "Şirin" MMC şirkəti ilə Rusiyanın "Mir sladosti" şirkəti arasında da müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, Rusiyaya 200 ton qənnadı məhsulları ixrac olunacaqdır. Rusiyanın Vladivostok, Tümen, Krasnoyarsk, Nijnıy Novqorod, İrkutsk və Tambov vilayətlərinin, həmçinin Ural regionunun distributor şirkətləri ilə imzalanmış müqavilələrə uyğun olaraq, "Şirin" MMC bu vilayətlərin hər birinə 30 ton qənnadı məhsulları ixrac edəcəkdir.

Bundan başqa, sərgi zamanı Azərbaycanın "Əmin qida sənaye" MMC

şirkəti şəkərli vanil və qabartma tozunun Rusiyaya ixracına dair bu ölkənin distributor şirkəti ilə razılıq əldə etmişdir.

Ümumilikdə, “Worldfood Moscow” Beynəlxalq Ərzaq Sərgisinin işə başladığı ilk 2 gün ərzində Azərbaycanın fındıq, qənnadı məmulatları, vanil və qabartma tozunun Rusiyaya ixracına dair 13 müqavilə imzalanmışdır.

Qeyd edək ki, Azərbaycan “Worldfood Moscow” sərgisində 30-dan çox ixracatçı şirkətlə təmsil olunmuşdur. Yerli şirkətlərimizin keyfiyyətli və rəqabətqabiliyyətli məhsulları- meyvə şirələri, təbii mineral sular, şərab və spirtli içkilər, meyvə-tərəvəz, süd məhsulları, çay, fındıq, qənnadı məmulatları və konservləşdirilmiş qidalar “Made in Azerbaijan” vahid ölkə stendində nümayiş olunmuşdur. Sərgidə Azərbaycan “Ən yaxşı debüt” mükafatına layiq görülmüşdür.

“Worldfood Moscow” Beynəlxalq Ərzaq Sərgisi çərçivəsində həmçinin, “Təzə meyvə-tərəvəz: ixrac coğrafiyasının genişləndirilməsi” mövzusunda Konfrans keçirilmişdir. Tədbirdə çıxış edən dövlət qurumlarının nümayəndələri və iş adamları bağçılığın inkişafı, bu sahədə həyata keçirilən layihələr və proqramlar, meyvə və tərəvəz məhsullarının ixracı, bu məhsulların qablaşdırılması, saxlanması barədə fikir və təcrübələrini bölüşmüşlər. Tədbirdə AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev keyfiyyətli və rəqabətədavamlı Azərbaycan məhsulları, ölkəmizin ixrac imkanları, “Made in Azerbaijan” brendinin tanıdılması sahəsində görülən işlər barədə danışmış, tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırmışdır.

Konfransdan sonra keçirilmiş furşetdə isə tədbir iştirakçılarına Azərbaycan məhsulları – meyvə, milli şirniyyatlar, qənnadı məmulatları, quru meyvələr və s. təqdim edilmişdir. Furşetdə təqdim edilmiş təamlar konfrans iştirakçıları tərəfindən bəyənilmiş və yüksək qiymətləndirilmişdir.











# Macarıstana ixrac missiyası təşkil olunacaq

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Macarıstanın Budapeşt şəhərinə ixrac missiyası təşkil olunacaqdır. 2017-ci ilin 1-4 oktyabr tarixlərində reallaşdırılacaq ixrac missiyası aşağıdakı sahələri əhatə edəcəkdir:

- meyvə-tərəvəz;
- meyvə şirələri;
- şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları;
- şərab və digər spirtli içkilər;
- bal və baldan hazırlanan məhsullar;
- çay məhsulları;
- fındıq məhsulları;
- mineral sular;
- kimya sənayesi məhsulları;
- mebel və ev əşyaları;
- tekstil.

Qeyd edək ki, ixrac missiyasında iştirak edəcək ixracatçılar müsabiqə əsasında seçilir. Müsabiqənin təşkilatçısı İqtisadiyyat Nazirliyi – Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondudur (AZPROMO).

# Belarusda Azərbaycan Ticarət Evi uğurla fəaliyyət göstərir

Yaranmasından qısa müddət keçməsinə baxmayaraq, Azərbaycan Ticarət Evi vasitəsilə ölkəmizdən Belarusa 84 tondan artıq meyvə-tərəvəz məhsulları (pomidor, gavalı, armud, şaftalı, nektarin, yaşıl zeytun və zeytun məhsulları, o cümlədən 8000 şüşəyə yaxın zeytun yağı, zeytun mürəbbəsi, 2700 şüşəyə yaxın nar şirəsi, 1200 qutudan artıq çay) ixrac edilmişdir. Bundan başqa, Azərbaycan istehsalı olan məhsulların Belarusda satışının təşkili məqsədilə Ticarət Evi ilə həmin ölkənin bir sıra iri ticarət şirkətləri arasında müqavilələr bağlanılmışdır.

Azərbaycan məhsullarının Belarusa ixracının genişləndirilməsi üçün tədbirlər davam etdirilir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, “Made in Azerbaijan” brendinin xarici ölkələrdə tanıdılması, yerli məhsulların satışı sahəsində fəaliyyətin bilavasitə həmin ölkələrdə təşkili və əlaqələndirilməsi məqsədilə Belarus Respublikasının Minsk şəhərində Azərbaycan Ticarət Evi yaradılmışdır. Azərbaycan Ticarət Evi hər iki ölkənin dövlət və hökumət nümayəndələrinin, iş adamlarının iştirakı ilə cari ilin 26 may tarixində açılmışdır. Ümumi sahəsi 529 m² olan Azərbaycan Ticarət Evinin 364 m²-lik sahəsində Azərbaycan məhsullarının daimi sərgisi fəaliyyət göstərir. Sərgidə Azərbaycan müəssisələrinin istehsal etdiyi müxtəlif növ ərzaq və qeyri-ərzaq məhsulları, o cümlədən meyvə-tərəvəz və onlardan emal olunmuş məhsullar (meyvə şirələri, kompotlar, konservlər, mürəbbələr, turşular, bitki yağları), çay, mineral sular, spirtli içkilər (şərab, konyak), xalça, tekstil, ipək və kosmetika malları, elektrik avadanlıqları, plastik məmulatlar və s. nümayiş olunur.



# İXRAC İCMALI



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ


## Bizimlə əlaqə

(+994)12 5213318

info@ereforms.org

Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi 16

/iqtisadiislahat